*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 160-168*

https://doi.org/10.62837/2024.10.160

**ƏLIYEVA TƏRANƏ QURBAN QIZI**
***Hərbi İdarəetmə İnstitutu***
**E-mail:** aliyevaterane71@gmail.com

# GÜRCÜ DİLİ QRAMMATİKASININ MƏNİMSƏDİLMƏSİ METODİKASI VƏ ONUN ƏHƏMİYYƏTİ

**Xülasə.** Gürcü dilinin tədrisinin geniş və şaxəli əhəmiyyəti var, tələbə gürcü xalqının dilini, adət-ənənələrini, təbiətini, mentalitetini öyrənir.

Hər bir dil özünün fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu ilə bir dil kimi mövcud olur və bu üç tərkib hissə birgə fəaliyyəti ilə ünsiyyətə xidmət edir. Səslər söz tərkibinə birləşdikdə, sözlər qrammatik quruluşun ixtiyarına keçdikdə ünsiyyətin əsas vasitəsi olan dil də təşəkkül tapır. Gürcü dilinin qrammatik quruluşunun mənimsədilməsi müxtəlif metodik yollarla həyata keçirilir. Bu prosesdə tətbiq edilən metodik üsullardan biri də qrammatik təhlildir. Tələbələrin qrammatikanı şüurlu olaraq mənimsəmələri, düzgün oxu, yazılı və şifahi nitq vərdişlərinə yiyələnmələri üçün Gürcü dilinin tədris sistemində qrammatik təhlilin böyük əhəmiyyəti vardır. Dilin tədrisi zamanı dilin səs tərkibi mütləq bütün incəlikləri ilə tələbəyə çatdırılmalıdır. Bunu hədəfə alaraq mütləq məqsədə varılmalıdır, çünki, gürcü dilinin spesifik səslərin harmonik və incə dilli azərbaycanlı üçün tələffüzü xeyli çətinlik törədir. Həmin səslər gürcü dilini «gürcüləşdirən» formantlardan biridir. Səsləri və onların düzgün tələffüzünü fonetika öyrənir. Dilin təsviri vasitələrini tələbə yaxşı mənimsəməlidir ki, fikrini açıq və aydın bildirmək üçün sözlərin seçimi və formalarında səhvə yol verməsin.

**Açar sözlər:** metod , metodika, semasiologiya, leksikologiya, induktiv, deduktiv, evristik, katexizm, leksika, qrammatik təhlil, heca, orfoqrafik təhlil, sual vermə üsulu.

## Giriş

Gürcü dili Gürcüstanın dövlət dilidir. İndi gürcü dili dünyanın inkişaf etmiş dilləri sırasındadır və o, müqayisə olunmaz inkişaf dövrü keçirmişdir. Gürcü dili gürcü xalqının tarixi inkişafının böyük nailiyyətidir. Arnold Çikobava yazırdı ki, kartvel (və ümumiyyətlə iber – qafqaz) dilləri arasında gürcü dili yeganə yazılı dildir ki, əsrlərdən bəri çoxlu abidələrdə sənədləşmişdir. Gürcü dili o qədər zəngindir ki, oz daxili imkanlarına görə o, dünya əhəmiyyətli dil hesab olunur.

Gürcü dili Azərbaycan xalqını gürcü xalqı ilə yaxınlaşdırır, onlara müxtəlif sahələrdə geniş əməkdaşlıq imkanı verir. Azərbaycan və gürcü xalqlarının dostluğunun çox qədim tarixi vardır. Bu barədə, Azərbaycan xalqının ümummilli lideri, Heydər Əliyev demişdir: “Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi ənənələrimiz vardır”…

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 160-168*

Dili öyrənmək və öyrətmək üçün onun müxtəlif sahələrinə diqqət: nitqin inkişafı və dilin normaları ilə tanış olmaq, başa düşmək və mənimsəmək, düzgün danışmaq (ortoepiya) və səhvsiz yazmağı (orfoqrafiya) bacarmaq, durğu işarələrini (punktuasiya) yerində işlətməsini avtomatikləşdirmə dərəcəsində təkmilləşdirmək və s.

Məqalədə məqsəd qeyri-gürcü tədris müəssisələrində qrammatik qaydalar vasitəsilə dilin mükəmməl öyrədilməsi məsələsidir. Məlumdur ki, başqa xalqla birgə yaşayan fərd üçün həmin dilini öyrənmək problem deyil. Qrammatik qaydaları bilmədən də həmin dili mükəmməl şəkildə öyrənmək mümkündür. Əgər birgə yaşayış yoxdursa, mütləq şəkildə istədiyin dilin qrammatik qaydalarını bilmək vacibdir.

## Əsas hissə

## Gürcü dili qrammatikasının mənimsədilməsi metodikası və əhəmiyyəti.

Müasir dövrdə azərbaycanlı gənclər üçün xarici dilləri, o cümlədən qonşu gürcü xalqının ana dilini öyrənmək su və hava kimi vacibdir. Gürcü dili Azərbaycan xalqını gürcü xalqı ilə yaxınlaşdırır, onlara müxtəlif sahələrdə geniş əməkdaşlıq imkanı verir.

Dili öyrənmək və öyrətmək üçün onun müxtəlif yönlərinə diqqət etmək lazımdır. Gürcü dilinin müxtəlif xüsusiyyətlərini bir-biri ilə əlaqələndirmə yolları var.

Gürcü (kartuli) dili, meqrel, svan və laz dilləri ilə birlikdə Qafqaz dilləri qrupu daxilində, Qafqaz iber ailəsinin tərkibində yer alır.

Gürcü dilinin tədrisinin geniş və hərtərəfli əhəmiyyəti var, dinləyici gürcü xalqının dilini, adət-ənənələrini, təbiətini, mentalitetini öyrənir. Böyük gürcü pedaqoqu Yakob Qoqebaşvili deyirdi: «dil dərrakənin inkişafı və bilik qazanmaq üçün ən yaxşı əlacdır». [ 1, s. 95]

**Metod və metodika nədir? -** Metod üsul, yol, tərz deməkdir. Metodika üsula bağlı olmalıdır. Konkret olaraq , öyrətmə üsulunun, aşılamaq tərzinin tipoloji baxımdan izah edilməsi və tətbiqetmə sistemidir.

Predmetinə görə gürcü dilinin tədrisi metodikası konkret, sistematik xarakter daşıyir. Onun Predmeti dil və oxu üzrə öyrətmə, mənimsətmə və tətbiqetmə strukturlarını əhatə edir.

Gürcü dili tədrisinin predmeti dil və oxu materiallarıdır. Gürcü dilinin tədrisi dil və oxu dərsliklərində verilmiş materiallara əsaslanır, həmin materiallar iki elmi sahə üzrə təqdim edilir.

Birincisi dil qrammatikasıdır: burada savad təlimi mərhələsi üçün ilkin yazı və oxu vərdişləri aşılanır, sonrakı mərhələrdə xarici dilin qrammatik qanun-qaydaları öyrədilir.

İkincisi oxu materialları- mətnlərdir: mətnlər, bədii əsərlərdən nümunələrdir, bəzi oxu materialları xəbər, məlumat –ümumilikdə elmi-kütləvi xarakteri daşıyır.

Gürcü dili tədrisinin məqsədi: Dinləyicilərə, tələbələrə oxumağı və yazmağı, kaliqrafik – hüsnxət yazı, qrammatik anlayışlar üzrə tələb olunan vərdişləri aşılamaq.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 160-168*

Öz fikirlərini şifahi və yazılı şəkildə sərbəst , dolğun, dəqiq, aydın, obrazlı məntiqli şəkildə ifadə etmək üzrə bilgilər vermək. Bu məqsədlər onu əsaslandırır ki, nitq inkişafının əsası digər fənlərin mənimsənilməsi üçün də baza rolunu oynayır.

Gürcü dili tədrisinin əsas vəzifələri: Dinləyicilərə, tələbələrə yazı və oxu vərdişləri aşılamaq və formalaşdırmaq, o cümlədən:

- onlara düzgün , aydın, sərbəst, sürətli, ifadəli oxumaq və savadlı, qrammatik cəhətdən düzgün yazmaq bacarıqları aşılamaq.;
- nitq qabiliyyətlərini inkişaf etdirmək, məsələn: dinləyicilərdə, tələbələrdə dialoqa girmək, öz fikirlərini sərbəst, ardıcı və rabitəli şəkildə ifadə etmək vərdişlərini inkişaf etdirmək;
- dinləyicilədə oxuduqları mətnlərə münasibətdə sərbəst mühakimə yürütmək, fikir söyləmək, məzmun və ideyanı aydın şəkildə qavramaq və dərk etmək qabiliyyətlərini formalaşdırmaq;
- dinləyicilərin sərbəst yazmaq, kiçik həcmli mətnlər yaratmaq vərdişlərini inkişaf etdirmək, yaradıcılıq qabiliyyətlərini artırmaq.

Bu məqsəd və vəzifələr onu əsaslandırır ki, dinləyicilər dil sisteminə dair səs, hərf, söz, kök, şəkilçi, söz birləşməsi, cümlə strukturları və əlamətləri ilə bağlı qanun-qaydaları öyrədir. [2. s. 165]

Gürcü dilinin müxtəlif xüsusiyyətlərini bir-biri ilə əlaqələndirmə yolları var. Dilin qrammatikası ilə birgə leksiki lüğət tərkibi də tədris olunur. Dilin leksiki tərkibini leksikologiya öyrənir, yəni leksikologiya sahəsinin qrammatika ilə uzlaşdırmanın öz yeri var. Tələbələr tədricən əsas leksiki mühitdən başqa, tərəqqiyə uyğun yeni (neologizm) sözləri də mənimsəyirlər.

Sözün mənasını Semasiologiya öyrənir, bu isə dərrakəli mənimsəmədə sözün mənasının bilməsini də nəzərdə tutur. Sözün və cümlənin formasına görə tədrisi, bu sözün və cümlənin mənasını da tələbə üçün aydınlaşdırır və aydınlaşdırmalıdır. [3, s. 146]

Qrammatikanın tədrisi dinləyicinin mücərrəd düşüncəsindən faydalanmasına böyük yardımçı olur, o qrammatik qaydaya, onun xüsusiyyətlərinə yiyələnir, sözlərin formasını dəyişdirilmə və cümlədə bir-biri ilə bağlanma qaydalarını konkret halda və bütövlükdə dildə mövcud olan qanunlara uyğun şəkildə öyrənir. Tələbə üçün məntiqi kateqoriyalar əl çatılan olur. Bunun üçün çox və dərrakəli, mütəmadi çalışmaq, konkret misal üzərində diqqətlə dayanmaq, müqayisə və təhlil, mütaliə etmək və müvafiq nəticə çıxarmaq lazımdır. Gürcü dilinin qrammatik quruluşunun mənimsədilməsi müxtəlif metodik yollarla həyata keçirilir. Bu prosesdə tətbiq edilən metodik üsullardan biri də qrammatik təhlildir. Tələbələrin qrammatikanı şüurlu olaraq mənimsəmələri, düzgün oxu, yazılı və şifahi nitq vərdişlərinə yiyələnmələri üçün gürcü dili məşğələlərinin ümumi sistemində qrammatik təhlilin böyük əhəmiyyəti vardır.

Qrammatikanı öyrənməyin praktiki əhəmiyyəti daha böyükdür. Qrammatik anlamların, onun kateqoriyalarının tədrisi əsasında zənginləşir və tələbənin şifahi və yazılı nitqini təkmilləşdirir. Qrammatika imlaya yiyələnməyin bünövrəsidir. Gürcü dili yazı və nitq vəhdətinə görə mükəmməl dillərdən biridir. Onda imlanın əsas prinsipi fonetik deyil, morfolojidir. Məs: qoşa samitlərin yazılış qaydaları, başqa dillərdən alınan sözlərdə isə qoşa samitlərdən birinin itməsi, u ilə v hərfin önündə I şəxs formalarında v formantın istifadəsi və s. və ilaxir. [6, səh. 98]

Qrammatik qaydaları bilmək, düzgün və aydın tərzdə oxumağa köməkçidir, başqa dilləri öyrənməyə təsiri olur. Praktiki əhəmiyyəti də elə bundadır.

Tədris prinsiplərindən biri əyani vəsaitlərə diqqət yetirməkdir. Əlifbanı öyrənən tələbənin kitabdakı hər hərfə uyğun ilyustrasiyalar yaddaşında qalır. Fonetikanı öyrədən müəllim lövhədə hərflərin yazılışını, hərfin başlanğıc nöqtəsini, fraqmentləri və sonluğunu dəqiq göstərməli və tələbədən bu və digər hərfin yazılış qaydalarını dəqiq icra etməsini tələb etməlidir. Lövhədə yazmaqdan başqa, plakat, tablo, sxem və s. vəsaitlərdən istifadə edilməlidir. Məs: ailə tərkibini, heyvanları, bitkiləri, rəngləri və s. əks edən tablolar, morfoloji və sintaksis təhlili üçün işarələrdən istifadə etməyi əks edən sxemlər və s.

Qrammatikanın tədris yolları induktiv və deduktiv olur. Yeni biliyin təqdimatı konkret faktın təhlilindən ümumiləşdirməyə gedirsə, yəni qrammatik qaydasına doğru yön alırsa bu yol *induktiv*, və əksinə, əgər əvvəlcə qaydanın tədrisi, sonra isə müvafiq nümünələrin təhlili edilirsə bu yol *deduktiv* yoludur.

Qrammatikanı öyrətmək üçün hər iki yol eyni hüquqludur. Qrammatikanın tədris metodları nəqli və mübahisə metodlardan ibarətdir. Qrammatikanın nəqli metodu da qədimdir, çünki dərslik kitabları olmayan zamanlar da var idi, hər şey şifahi, rəvayət, nəqli metodla həyatda davamını tapırdı və bu hər fənnə, sənətə aid edilirdi. Nəqli metodla tədrisi istər induktiv, istərsə də deduktiv yolla aparmaq mümkündür. Nəticə müəllimin nəql etmə məharətindən çox asılıdır. [4, s. 198]

*Mübahisə metodu* da qədimdən gəlir. Tədris, öyrədənin sualları və öyrənənin cavablarından ibarətdir, yəni müəllim və tələbə arasında mübahisə baş verir. Adı da bundan gəlir. Mübahisənin iki növü (metodu) olur: *evristik* - əsasən yeni materialın tədrisi zamanı tələbənin dərrakəsi və fəaliyyətinə əsaslanan metod; və *katexizm* - biliyin təkrarı ilə artırılması və mənimsəmə metodudur.

**Sual vermə üsulu -** Qrammatikanın tədrisində geniş istifadə olunur. Qədimdən bu üsul aparıcı sayılırdı. Hər kateqoriyanı müəyyən etmək üçün müvafiq suallar hazırlayırdılar (müq: müasir test üsulu). Bunu məntiqi (loqistik) qrammatika prinsipləri tələb edirdi, çünki onda həlledici məqam mənası müəyyən etmək irəli planda gəlirdi. Mənanı tapmaq üçün isə sual vermə üsulu ən yaxşı vasitədir.

Sual vermə üsulu qüvvədədir və qrammatikanın tədrisində bir fəndir. Ən çoxu da sintaksis bölməsində uğurlu sayılır. Qoyulmuş suallar tələbəni cümlədə əsas və yardımçı üzvlərin müəyyən etməsində məntiqi düşünməyə vadar edir. Məs: feilin

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 160-168*

zamanını dəqiqləşdirmək üçün nə edirdi?, nə edir?, nə edəcək? suallarına cavab verdikdə tələbə feilin zaman formasının dəyişdiyini və fərqini eyni zamanda subyektin və obyektin münasibətlərini görür. Bəzən mürəkkəb cümlələrin tərkibindəki əsas və asılı (budaq) cümlələri seçmək üçün sual vermə üsulu əvəzedilməzdir. Sual vermə üsulu tədris zamanı özünə məxsus yerini saxlamaqdadır. [ 6, səh. 157]

**Fonoloji təhlil** - sözün tərkibindəki heca və səslərin fonetik səciyyəsinə görə olur. Mətni tədris edərkən fonoloji təhlilin hədəfi ayrı-ayrı cümlələrin oxuma-tələffüz intonasiyaya (səs tonunun ucalıb-alçalması) yiyələnməsidir. Sözün üstünə düşən vurğunun, hecanın yerinə, tempinə, ritminə diqqət verilməlidir. Nəticədə bədii mətni açıq-aydın və dərrakəli oxumaq bacarığı əldə olunur.

Sözün ayrıca fonoloji təhlilinə gəldikdə, onun neçə hecalı olduğunu, sözün hansı hissəsini sətirdən sətrə keçirilməsini, neçə və hansı səslərdən (sait, samit, cingiltili, kar, sərt) ibarət olduğu nəzərdə tutulur. Tələbə hərf və səsin səslənmə və yazılışında fərqini bilməlidir, sözün tərkibində baş vermiş dəyişiklikləri (səsin, hərfin itməsi, assimilyasiya, dissimilyasiya və s.) səciyyələndirilməlidir.

Sözü tərkibinə görə səciyyələndirmək tələbə üçün onun yalnız tərkibini, formasını dəyişməsini yox, düzəlmə sözlərin meydana çıxma yollarını aydınlaşdırır, bir sözlə, orfoqrafik biliyini artırır. Morfoloji təhlil sözlərin nitq hissələrə görə xüsusiyyətlərini açıqlayır. Söz cümlə tərkibində öz formasına çatır, buna görə də morfoloji təhlili etmək üçün sözü cümlədə necə varsa elə götürmək lazımdır və bu zaman təhlili edən tələbə kateqoriyaları yalnız morfoloji qaydaların köməyi ilə izah etməlidir. Sintaksika terminlərin müdaxiləsinə yol verilməməlidir. Morfoloji təhlili əyani vəsaitdən istifadə edəndə faydalı olur. İsmin tərkib elementləri ard-ayır edilir: სასწავლო - (sastsavlo) tədrisə aid söz ön şəkilçi სა - (sa), sözün kökü სწავლ (stsavl) və ო - (o) sonluqdan ibarətdi, ancaq sa-o vəhdəti mənsubiyyət şəkilçisidir.

Feilin təhlili zamanı müxtəlif ön şəkilçilərdən əvvəl (preverbal, gürcü dilinə xas olan, hərəkətin istiqamətini bildirən feil ön şəkilçi) gəlir, sonra hərəkətin başqa bir aspektini infiks, felin növünü əks edən hissəcik, kök, əlaqələndirici, subyekt göstəricisi, zaman, qrammatik say və şəxs şəkilçiləri ardıcıllıqla düzülür. Məlum olduğu kimi gürcü feili çox şaxəli kateqoriyadır və bu haqda feilin tədrisi şöbəsində geniş məlumat veriləcəkdir. [ 3, səh. 197]

**Orfoqrafik təhlil** - Mətnin, yaxud ayrı-ayrı sözlərin imla məsələlərinin təhlilini nəzərdə tutur. Bu zaman imla qaydalarının morfoloji qanunlarına yaxınlığı aydın görünür. Məs: gürcü feilində şəxs əvəzliyi tədrisi zamanı diqqəti «v» – ilə başlayan sözlər cəlb edir, çünki sözün əvvəlində qoşa «v» əmələ gəlir: ვარდები ( verdebi qızıl güllər), ვ-ვარდები vvardebi - yıxılıram, წვრთნას გავდივარ, ვვარჯიშობ [vvarcişob] – vərdiş edirəm, məşq edirəm və s. Orfoqrafik təhlil səhvləri düzəltmə vaxtı, yaxud yoxlama işi keçirmədən əvvəl baş verir. Bu anda mürəkkəb orfoqramlar mətindən ayrılırlar, çıxarılır və təhlilə məruz qoyulur, nə cür və nəyə görə söz belə və

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 160-168*

elə yazılmağı başa salınır. Orfoqrafik normaya riayət edən şagird, orfoepik normaya da riayət etmiş olur. Danışıq səslərinin ifadəsi qrammatik cəhətdən düzgün söz ardıcıllığına və nəhayət cümlə quruluşuna gətirib çıxarır. Fonetika özündən sonrakı mövzuların, bölmələrin mənimsənilməsi üçün zərurət rolunu oynayır. Bu bölməni bilməyən şagird leksikologiyada omonimləri, morfologiyada nitq hissələrini, sintaksisdə isə intonasiyaya görə cümlənin növlərini müəyyən etməkdə çətinlik çəkəcək.

Hərf və səs mövzusuna başlamazdan əvvəl yazının ümumbəşər önəmindən məlumat verilir. Dünyada mövcud olan qədim və müasir əlifbalardan imkan daxilində nümunələr götürülməlidir. Kursantlar bilməlidirlər ki, insanlar canlı ünsiyyət yaratmaq üçün dildən istifadə edirlər. Öz fikirlərini sözlər vasitəsi ilə bir-birinə çatdırırlar. Sual olur: bəs fiziki cəhətdən uzaq olanlar nə demək istədiklərini necə çatdırırlar? Siqnallarla, mimika ilə, əl sallamaqla və s. Deməli, bunun hamısı səs və mimikanın köməyi ilə həyata keçir.

Sözün hərfi tərkibini və onun rolunu dərk etmək üçün sinonim və omonimlər üzərində çalışmaq yaxşı nəticə verir, çünki səs (hərf) tərkibi eyni olan sözlər mənaca müxtəlif, yaxud, əksinə müxtəlif səslər tərkibli sözlər mənaca eyni ola bilər. Bu zaman fonetik ünsurlara diqqət yetirdiyi zaman kursant leksikaya da yiyələnir.

Gürcü dilini tədris etdiyimiz tələb kontingenti əlifba nə olduğunu bilir, sadəcə onları gürcü əlifbasının tarixi ilə, müasir əlifbanın formalaşma mərhələləri ilə tanış etmək lazımdır. Onlara gürcü əlifbasının tərkibi, səslərin ardıcıllığı, gələcək tarix və regionşünaslara «əbcəd» hesabı, qrafikası və s. məlumatları qısa şəkildə çatdırandan sonra hərfləri öyrətməyə başlamaq olar. Dilin tədrisi zamanı dilin səs tərkibi mütləq bütün incəlikləri ilə tələbəyə çatdırılmalıdır. Gürcü dilinin «gürcüləşməsinin» səbəbi üçlü samitlərin qrupu və onun tərkibindəki sərt tələffüz olunan samitlərdir. Bundan başqa, sözü tələffüz etməni bir qədər yüngülləşdirən samitləri, sonorları მ, ნ, რ, ლ (m, n, r, l) da ayrıca qeyd etmək olar. Qeyd etmək lazımdır ki, bu günə qədər böyük gürcü pedaqoqu Yakob Qoqebaşvilinin (1840-1912) «Deda ena» – Ana dili dərsliyindən yaxşısı yoxdur və ola bilməz. Ayrıca əlavə olaraq, bir qədər müasir kəlmələrdən istifadə etmək olar. [5, s. 213]

Hecanı tələbələr praktiki olaraq ibtidai siniflərdən bilir, ancaq gürcü dilində samitlərin bir heca tərkibindəki çoxluğu bəzən çaşqınlıq yaradır, xüsusən də sözün bir hissəsini sətirdən sətrə keçirmək zamanı (kompüterdə sözün bir hərfinin sətirdə qalması, yaxud keçrməsi mövzuya aid deyil.)

Gürcü dilində bir-, iki-, üç-, dörd-, beş- və s. hecalı sözlər olur. Sözlərin əksəriyyətində samitlər saitlərdən çoxdur, məs: bir hecalı söz - სჭრი (stçri) kəsirsən – də 3 samit, 1 sait var.

1. Bir hecalı söz hərf miqdarından asılı olmadan bölünməzdir, yəni sətirdən sətirə keçirilməz, həmdə ki, bir hecalı gürcü sözünün tərkibində 1-dən 8-ə qədər samit toplaşa bilər. Məs: დას (das) bacıya, დღეს (dğes) – bu gün; მკვლელს (mkvlels) –

qatilə; მჩხვლეტს (mçxvlets) – mənə batırır; ფრცქვნის (prtskvnis) – qabığı soyur; გვწვრთნის (qvtsvrtnis) - o bizə məşq etdirir və s. kimi sözlər.

2. Açıq hecası olan sözləri hər saitdən sonra bölmək olar, məs: სა–ათი, საა–თი (saati̥) – saat; გა–აკეთა, გაა–კეთა, გააკე–თა (qaaketa) – düzəltdi etdi və s.

3. Sözün əvvəli və sonunda duran bir saitdən ibarət heca sözdən ayrılaraq nə sətirdə saxlanar, nə də köçürülər, məs: ია – (ia) bənövşə; - ა–უშენებია, აუშენები–ა (auşenebia) – inşa etmişdir, tikmişdir, qurmuşdur və s.

4. Sözün tərkibindəki hecada cəmlənmiş samitlərdən birincisi öndəki hecaya aid, başqaları (sayından asılı olmayaraq) isə sonra gələn hecaya bağlıdır. Məs: მასწავლებელი (mastsavlebeli) müəllim, სახელმძღვანელო (saxelmdzğvanelo) dərslik kitab, və s. [7, səh. 227]

## Nəticə

Məqalədə qrammatikanın tədrisi yollarından bəhs edir. Bildiyimiz kimi, qrammatika özündə fonetikanı, leksikanı, morfologiyanı, sintaksisi və dil tarixini cəmləşdirir. Fonetikanı bilmədən sözün lüğət tərkibini, lüğət tərkibini bilmədən, morfologiyanı,. morfologiyanı öyrənmədən sintaksisi mənimsəmək qeyri mümkündür. Məhz elə buna görə də məqalədə həmin ardıcıllıq gözlənilmiş və tədris zamanı qarşıda qoyulan məqsədə çatmaq üçün sistemli şəkildə tədrisə önəm verilmişdir.

Gürcü dilini də tələbələrə öyrədərkən yuxarıda verilən ardıcıllıq gözlənilməlidir. Belə olan halda , öyrənmək daha asan olur. Tələbələr, hər hansı bir dili öyrənmək istəyirsə, mütləq həmin xalqın əlifbasını bilməli və dilin qrammatik qaydalarını-sadədən mürəkkəbə doğru öyrənməyə cəhd etməlidir. Çünki o, sözün hansı səslərdən yarandığını, söz birləşməsinin necə formalaşdığını, hansı şəkilçilərin əlavə olunacağını bilməlidir. Dilin tədrisi zamanı dilin səs tərkibi mütləq bütün incəlikləri ilə tələbəyə çatdırılmalıdır.Qrammatikanın dərindən mənimsədilməsi istənilən dilin öyrənilməsində çox önəmlidir. Dilin qrammatik qayda –qanunlarını aşılayarkən dinləyiciləri praktikaya, dilin özünəməxsus cəhətlərinə, əyaniliyə cəlb etmək lazımdır. Öyrətdiyimiz biliklərdə nəzəri və praktiki vərdişlər vəhdət təşkil etməlidir.

**Аннотация**

**Методика обучению грамматики грузинского языка и её значение**

**Педагог Тарана Алиева**

Преподавание грузинского языка имеет широкое и разнообразное значение, ученик изучает язык, традиции, природу и менталитет грузинского народа.

Великий грузинский педагог Якоб Гогебашвили сказал: «Язык – лучший инструмент мышления и получения знаний». Каждый язык существует вместе

со своей фонетической системой, словарным запасом и грамматическим строем и служит общению посредством взаимодействия этих трёх компонентов.

Язык - главное средство общения, формируется при соединении звуков в слова, когда слова захватываются грамматической структурой. Освоение грамматического строя грузинского языка осуществляется различными методическими приёмами. Одним из таких методических приёмов, применяемых в этом процессе, является грамматический анализ. Большое значение для сознательного усвоения учащимися грамматики, приобретения правильных навыков чтения, письменной и устной речи в общей системе уроков грузинского языка имеет грамматический анализ. В процессе обучения языку звуковой состав языка должен быть детально донесён до учащегося. Цель, к которой необходимо стремиться, должна быть достигнута, ведь произношение специфических звуков грузинского языка очень сложно для стройного и тонкого языка азербайджанца. Эти звуки действительно являются одной из формант, «грузинизирующих» грузинский язык.

**Ключевые слова:** метод, методика, семасиология, лексикология, индуктивный, дедуктивный, эвристический, катехизис, лексикон, грамматический анализ, слог, орфографический анализ, метод постановки вопросов.

**ALIYEVA TARANA**

**Abstract**

**Methodology and importance of mastering Georgian grammar**

**Pedagogue Tarana Aliyeva**

The teaching of the Georgian language holds significant cultural and educational value, enabling students to engage with the language, customs, nature, and mindset of the Georgian people.

The great Georgian pedagogue Yakob Gogebashvili emphasized that "language is the best tool for developing understanding and acquiring knowledge." Each language possesses a unique phonetic system, vocabulary, and grammatical structure, all of which collaborate to facilitate communication.

Language, the main means of communication, is formed when sounds are combined into words, when words are taken over by the grammatical structure. Effective mastery of the Georgian language involves various methodological approaches, with grammatical analysis playing a crucial role. This analysis is essential for helping students consciously understand grammar and develop proficient reading, writing, and speaking skills. In teaching, it is vital to convey the complexities of the language's sound system, particularly since the unique phonetic

features of Georgian can be challenging for Azerbaijani speakers. Those sounds are really one of the formants that "Georgianize" the Georgian language.

**Key words:** method, methodology, semasiology, lexicology, inductive, deductive, heuristic, catechism, lexicon, grammatical analysis, syllable, orthographical analysis, questioning method.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Çikobava Arn. Dilşünaslığa giriş, səh. 285,Tbilisi, 1952.
2. Çikobava Arn., redaktorluğu ilə, Gürcü dili SSRİ xalq dilləri, IV, səh. 425, Moskva, 1967.
3. Şanidze Ak., Gürcü dilinin qrammatikası, səh. 350, Tbilisi, 1962.
4. Şanidze Ak., Gürcü dili qramatikasının əsasları, səh. 350, Tbilisi, 1973.
5. Şaraşenidze N., Midamo Gürcü dili qrammatikası səh. 250, Tbilisi, 2010
6. Teteloşvili T.– Ağmarti – Gürcü dili – xarici dil kimi, səh.160, Tbilisi, 2013
7. Talakvadze M., Gürcü dili qrammatikasının tədris metodikası, səh.405, Tbilisi, 1965.

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Ülviyyə Əfəndiyeva**